AZƏRBAYCAN RESPUBLİKASININ
MƏRKƏZİ BANKI

STATİSTİKA DEPARTAMENTİ

# 2025-ci il üzrə Tədiyə balansı

2025

STRUKTUR


1. TERMİNLƏR LÜĞƏTİ ........ 4

2. XÜLASƏ ........ 8

3. CARİ ƏMƏLİYYATLAR BALANSI (CƏB) ........ 9

3.1. Xarici ticarət balansı ........ 9

3.2. Xidmətlər balansı ........ 11

3.3. İlkin gəlirlər balansı ........ 12

3.4. Təkrar gəlirlər balansı ........ 13

4. KAPİTAL VƏ MALİYYƏNİN HƏRƏKƏTİ HESABI ........ 14

4.1. Birbaşa investisiyalar ........ 15

4.2. Portfel investisiyaları ........ 15

4.3. Neft bonusu ........ 16

4.4. Digər investisiyalar ........ 16

5. EHTİYAT AKTİVLƏRİ ........ 16

6. XALİS SƏHVLƏR VƏ BURAXILIŞLAR ........ 16

# CƏDVƏLLƏR

CƏDVƏL 1. 2025-ci il üzrə tədiyə balansının əsas göstəriciləri, mln.$. .................................... 8

CƏDVƏL 2. 2025-ci il üzrə CƏB-in əsas göstəriciləri, mln.$ ..................................................... 9

CƏDVƏL 3. Xarici ticarət balansının strukturu, mln.$ ........................................................... 10

CƏDVƏL 4. İdxalın strukturu, mln.$......................................................................................... 11

CƏDVƏL 5. 2025-ci il üzrə xalis xarici maliyyə aktivləri və öhdəlikləri, mln.$. ......................... 14

# QRAFİKLƏR

QRAFİK 1. 2025-ci il üzrə pul baratlarının əsas göstəriciləri, mln.$........................................ 13

## 1. TERMİNLƏR LÜĞƏTİ

| | |
|---|---|
| Cari əməliyyatlar balansı | Cari əməliyyatlar balansına ölkənin i) xarici ticarət balansı, ii) xidmətlər balansı, iii) ilkin gəlirlər balansı, iv) təkrar gəlirlər balansı daxildir. |
| Xarici ticarət balansı | Xarici ticarət balansı malların ixrac və idxal əməliyyatlarının saldosudur. |
| Xidmətlər balansı | Xidmətlər balansı i) emal və təmir xidmətləri, ii) nəqliyyat xidmətləri, iii) turizm xidmətləri, iv) royalti və lisenziya xidmətləri, v) telekommunikasiya və rabitə xidmətləri, vi) tikinti xidmətləri, vii) sığorta xidmətləri, viii) maliyyə xidmətləri, ix) hökumət xidmətləri, x) digər işgüzar xidmətlər, xi) şəxsi, mədəni və əyləncə xidmətləri üzrə ixrac və idxal əməliyyatlarının saldoları əsasında hesablanır. |
| İlkin gəlirlər balansı | İlkin gəlirlər balansı əldə edilmiş və ödənilmiş faktor gəlirləri, o cümlədən əmək haqları, birbaşa investisiyalardan gəlir, dividend, faiz, renta və s. maddələr üzrə daxilolma və xaricolma əməliyyatlarının saldosu əsasında formalaşır. |
| Təkrar gəlirlər balansı | Təkrar gəlirlər balansı cari transfertlər, o cümlədən pul baratları, humanitar yardımlar, qrantlar və s. maddələr üzrə daxilolma və xaricolma əməliyyatlarının saldosu əsasında formalaşır. |
| Kapital və maliyyənin hərəkəti hesabı | Kapital və maliyyənin hərəkəti hesabı ölkəyə daxil olan və ölkədən çıxan vəsaitlərin (kapitalın) hərəkətini əks etdirir. Kapital daxilolmaları və xaricolmaları i) birbaşa, ii) portfel, iii) ticarət kreditləri və avanslar, iv) kreditlər və ssudalar, v) depozitlər və nağd valyuta, habelə digər formalarda ola bilər. |
| Kapital hesabı | Kapital hesabı ölkənin qalan dünya ilə istehsal edilməmiş qeyri-maliyyə aktivləri üzrə əməliyyatlarını (məsələn, idmançıların |

| | |
|---|---|
| | transferləri), həmçinin kapital yönümlü digər transfertləri (məsələn, avadanlıq formasında edilmiş humanitar yardım) əks etdirir. |
| Maliyyə hesabı | Maliyyə hesabı ölkənin xalis xarici maliyyə aktivlərini və xalis xarici maliyyə öhdəliklərini əks etdirir. Buraya müxtəlif növ sərmayə axınları, yaranmış maliyyə öhdəlikləri və tələbləri aiddir (birbaşa və portfel investisiyaları, kreditlər və ssudalar, depozitlər və nağd valyuta və digərləri). |
| Birbaşa investisiyalar | Birbaşa investisiyalar ölkənin rezidenti tərəfindən digər ölkənin rezidentinə məxsus müəssisənin idarə edilməsində nəzarəti həyata keçirməsinə hüquq verən sərmayədir. |
| Neft bonusu | Neft-qaz sektoru üzrə Hasilatın Pay Bölgüsü sazişlərinin imzalanması və ya icrası ilə bağlı Azərbaycan Respublikasına ödənilən kompensasiya (mükafat) məbləğidir. |
| Portfel investisiyaları | Portfel investisiyaları ölkənin rezidenti tərəfindən digər ölkənin rezidentinə məxsus müəssisənin idarə edilməsində aktiv iştirak etmədən gəlir əldə etmək məqsədi ilə qiymətli kağızlara edilmiş investisiyalardır. Bu maddəyə birbaşa investisiyalara aid olmayan qiymətli kağızlara investisiyalar aiddir. |
| Digər investisiyalar | Digər investisiyalara i) ticarət kreditləri və avanslar, ii) kreditlər və ssudalar, iii) depozitlər və nağd valyuta üzrə əməliyyatlar aiddir. Birbaşa, portfel və törəmə maliyyə alətlərinə aid olmayan digər investisiyalar bu maddəyə daxilidir. |
| Ticarət kreditləri | Ticarət kreditləri (borcları) qeyri-rezidentlər tərəfindən rezidentlərə təqdim olunmuş malların (və ya göstərilmiş xidmətlərin) müqabilində rezidentlər tərəfindən dəyəri ödənilməmiş məbləğ, yaxud rezidentlər tərəfindən qeyri-rezidentlərə təqdim olunmuş malların (və ya göstərilmiş xidmətlərin) müqabilində qeyri-rezidentlər tərəfindən dəyəri ödənilməmiş məbləğ hesab edilir. |

| | |
|---|---|
| Ticarət avansları | Ticarət avansları qeyri-rezidentlər tərəfindən rezidentlərə təqdim olunacaq malların (və ya göstəriləcək xidmətlərin) müqabilində rezidentlər tərəfindən dəyəri qabaqcadan ödənilmiş (qismən və ya tam) məbləğ, yaxud rezidentlər tərəfindən qeyri-rezidentlərə təqdim olunacaq malların (və ya göstəriləcək xidmətlərin) müqabilində qeyri-rezidentlər tərəfindən dəyəri qabaqcadan ödənilmiş (qismən və ya tam) məbləğ hesab edilir. |
| Kreditlər və ssudalar | Kreditlər və ssudalar bağlanmış müqaviləyə uyğun olaraq qaytarılmaq şərtilə, müəyyən müddətə (müddətin uzadılması hüququ ilə) və faizlər (komisyon haqlar) ödənilmək şərtilə, təminatla və ya təminatsız müəyyən məbləğdə borc verilən pul vəsaitidir. |
| Depozitlər və nağd valyuta | Depozitlər və nağd valyuta müvafiq müqavilə şərtləri ilə faizlər və ya komisyon haqlar ödənilməklə və ya ödənilmədən investorların (depozitorların) tələbi ilə qaytarılmasını və ya başqa hesaba köçürülməsini nəzərdə tutan cari, əmanət (depozit), müxbir və ya digər hesablara qoyulmuş və ya köçürülmüş pul vəsaiti və nağd formada olan xarici valyuta hesab edilir. |
| Ehtiyat aktivləri | Cari əməliyyatlar balansında və kapital və maliyyənin hərəkəti hesabında baş vermiş əməliyyatların nəticəsi olaraq ölkənin strateji valyuta ehtiyatlarının artıb/azalmasını ifadə edir. Təcrübədə cari əməliyyatlar balansı profisitli olduqda, bu profisit kapital və maliyyənin hərəkəti hesabının kəsirini maliyyələşdirir. Əgər cari əməliyyatlar balansının profisiti kapital və maliyyənin hərəkəti hesabının kəsirini üstələyirsə, bu halda yaranmış fərq ehtiyat aktivlərini artıra bilər. |
| Xalis səhvlər və buraxılışlar | Xalis səhvlər və buraxılışlar tədiyə balansının müvafiq maddələri üzrə qeydiyyata alınmayan əməliyyatların nəticəsində |

| | |
|---|---|
| | formalaşa bilər. Təcrübədə tədiyə balansının tərtibatında xalis səhvlər və buraxılışların "0" olmasını təmin etmək mümkün deyildir. Təcrübə göstərir ki, xarici iqtisadi əlaqələrin sürətlə genişləndiyi şəraitdə bir sıra əməliyyatların dəqiq qeydiyyatını aparmaq mürəkkəb bir prosesdir. Buna səbəb informasiyanın tam olmaması, informasiya mənbələri arasında vaxt intervalı, qiymətləndirmələrdə kənarlaşmalar və s. kimi amillərdir. Əksər hallarda bir əməliyyatın kredit və debet tərəflərini qeyd etmək üçün müxtəlif informasiya mənbələrindən istifadə olunur. Bu mənbələrin biri və ya bir neçəsi natamam olduqda kredit və debet tərəfləri bir-birinə bərabər olmur və nəticədə müəyyən fərq yaranır. Bu fərqlər ümumiləşdirilərək yekunda xalis səhvlər və buraxılışlar bölməsində əks olunur. Misal olaraq, tədiyə balansında cari hesablar balansı ilə kapital və maliyyənin hərəkəti hesabı üzrə balansın fərqi nəticəsində yaranmış profisit ehtiyat aktivlərinin artımını üstələyirsə, bu fərq xalis səhvlər və buraxılışlar bölməsində mənfi işarə ilə qeyd olunmalıdır. |

## 2. XÜLASƏ

2025-ci il üzrə tədiyə balansı[1] qlobal əmtəə, xidmət və maliyyə bazarlarındakı qiymət və indeks dəyişkənliyindən təsirlənmişdir. Cari əməliyyatlar balansında 3.5 mlrd.$ həcmində profisit formalaşmış, kapital və maliyyənin hərəkəti balansı üzrə xalis xarici maliyyə aktivləri 5.4 mlrd.$, xalis xarici maliyyə öhdəlikləri isə 0.4 mlrd.$ artmışdır. Hesabat dövründə cari əməliyyatlar balansının profisitinin ÜDM-ə nisbəti 4.6% təşkil etmişdir ki, bu da makroiqtisadi sabitlik baxımından müsbət haldır. Dövr ərzində ölkənin ehtiyat aktivlərinin reallaşmış hissəsi təqribən 1.4 mlrd.$ azalmışdır. Lakin, ölkənin strateji valyuta aktivləri dövrün sonuna 14.1 mlrd.$ artaraq 85.1 mlrd.$-a çatmışdır ki, bu da ölkənin makroiqtisadi dayanıqlığının daha da gücləndiyini göstərir. Bu dövrdə xam neftin orta qiyməti 68.5$/barel olmuşdur.

*CƏDVƏL 1. 2025-ci il üzrə tədiyə balansının əsas göstəriciləri, mln.$.*

| Göstəricilər | 2025-ci il |
|---|---|
| **Cari əməliyyatlar balansı** | **3 475.1** |
| Xarici ticarət balansı | 6 378.5 |
| Xidmətlər balansı | -1 659.1 |
| İlkin gəlirlər balansı | -1 986.4 |
| *- İnvestisiya gəlirlərinin repatriasiyası* | -2 473.4 |
| Təkrar gəlirlər balansı | 742.1 |
| **Kapital hesabı** | **-7.9** |
| **Maliyyə hesabı** | **-4 963.8** |
| Xalis xarici maliyyə aktivləri | 5 362.7 |
| *- xaricə yönəldilmiş birbaşa investisiyalar* | 910.2 |
| *- portfel investisiyaları* | 1 862.4 |
| *- digər investisiyalar* | 2 590.1 |
| Xalis xarici maliyyə öhdəlikləri | 398.9 |
| *- cəlb olunmuş birbaşa investisiyalar* | 6 595.3 |
| *- cəlb olunmuş investisiyanın repatriasiyası* | -6 671.5 |
| *- neft bonusu* | 450.4 |
| *- portfel investisiyaları* | -28.1 |
| *- digər investisiyalar* | 52.8 |
| **Ehtiyat aktivlərinin dəyişimi** | **-1 444.1** |
| **Xalis səhvlər və buraxılışlar** | **52.5** |

[1] Tədiyə balansının metodoloji tərtibatı ilə bağlı https://uploads.cbar.az/assets/4f9ced2ebffd8b2fb6149f920.pdf səhifəsinə müraciət edilə bilər.

## 3. CARİ ƏMƏLİYYATLAR BALANSI (CƏB)

2025-ci il üzrə cari əməliyyatlar hesabının profisiti 3.5 mlrd.$ və ya ÜDM-in 4.6%-ni təşkil etmişdir (2024-cü il üzrə 4.7 mlrd.$ profisit olmuşdur). Neft-qaz sektoru üzrə CƏB-in profisiti 2024-cü ilə nəzərən 8.1% daralaraq 13.8 mlrd.$, qeyri-neft-qaz sektoru üzrə CƏB-in kəsiri isə 0.3% azalaraq 10.3 mlrd.$ məbləğində olmuşdur.

*CƏDVƏL 2. 2025-ci il üzrə CƏB-in əsas göstəriciləri, mln.$.*

| Göstəricilər | 2024-cü il | 2025-ci il | Dəyişmə, %-lə |
|---|---|---|---|
| **Cari əməliyyatlar balansı** | **4 671.1** | **3 475.1** | **-25.6** |
| - *Neft-qaz sektoru* | *15 057.0* | *13 831.7* | *-8.1* |
| - *Digər sektorlar* | *-10 385.9* | *-10 356.6* | *-0.3* |
| Xarici ticarət balansı | 8 824.9 | 6 378.5 | -27.7 |
| Xidmətlər balansı | -2 050.8 | -1 659.1 | -19.1 |
| İlkin gəlirlər balansı | -2 734.7 | -1 986.4 | -27.4 |
| Təkrar gəlirlər balansı | 631.7 | 742.1 | 17.5 |

### 3.1. Xarici ticarət balansı

2025-ci il üzrə xarici ticarət dövriyyəsi 41.8 mlrd.$ təşkil etmiş, neft-qaz sektoru üzrə 18.1 mlrd.$ həcmində profisit qeyri-neft-qaz sektoru üzrə 11.7 mlrd.$ həcmində kəsiri bağlamışdır. Nəticədə hesabat dövründə xarici ticarət balansında 6.4 mlrd.$ həcmində profisit yaranmışdır. 2025-ci il üzrə Azərbaycanın dünyanın 179 ölkəsi ilə ticarət əlaqələri olmuşdur. Xarici ticarətin 12.6%-i MDB üzvü olan ölkələrin, 87.4%-i isə digər xarici ölkələrin payına düşür.

*CƏDVƏL 3. Xarici ticarət balansının strukturu, mln.$.*

| Göstəricilər | 2024-cü il | 2025-ci il | Dəyişmə, %-lə |
|---|---|---|---|
| **Xarici ticarət balansı** | **8 824.9** | **6 378.5** | **-27.7** |
| - Cəmi ixrac | 25 992.0 | 24 074.6 | -7.4 |
| - Cəmi idxal | -17 167.1 | -17 696.1 | 3.1 |
| **Neft-qaz sektoru** | **20 282.2** | **18 078.7** | **-10.9** |
| - İxrac | 22 751.0 | 20 605.1 | -9.4 |
| - İdxal | -2 468.8 | -2 526.4 | 2.3 |
| **Qeyri-neft-qaz sektoru** | **-11 457.3** | **-11 700.2** | **2.1** |
| - İxrac | 3 241.0 | 3 469.5 | 7.0 |
| - İdxal | -14 698.3 | -15 169.7 | 3.2 |

**Əmtəə ixracı.** Hesabat dövründə əmtəə ixracı 7.4 % azalaraq 24.1 mlrd.$ təşkil etmişdir. Dövr ərzində əsasən dünya bazarlarında xam neftin və təbii qazın qiymətlərinin əlverişli olması şəraitində neft-qaz sektoru üzrə ixracın həcmi 20.6 mlrd.$ olmuşdur. İxrac olunmuş neft-qaz məhsullarının (20.6 mlrd.$) 12.6 mlrd.$-ı xam neftin, 7.3 mlrd.$-ı təbii qazın, 0.7 mlrd.$-ı isə neft emalı məhsullarının payına düşür. 2025-ci il üzrə qeyri-neft-qaz ixracı isə 7.0% artaraq 3.5 mlrd.$ olmuşdur.

**Əmtəə idxalı.** 2025-ci il üzrə əmtəə idxalı ötən ilə nəzərən (ö.i.n.) 3.1% artaraq 17.7 mlrd.$ təşkil etmişdir. Hesabat dövründə istehlak mallarının idxalının ümumi dəyəri 7.1 mlrd.$ olmuş, bunun da 2.5 mlrd.$-ı ərzaq məhsullarının payına düşür. Qeyri-neft-qaz sektoru üzrə idxal 3.2% artaraq 15.2 mlrd.$ olmuşdur. Qeyri-neft-qaz idxalının strukturunda: uçuş aparatlarının (7.3 dəfə); dəmiryol nəqliyyat vasitələrinin (3.3 dəfə); minik avtomobillərinin (36.7%); tərəvəz məhsullarının (25.8%); alkoqollu və alkoqolsuz içkilərin (15.4%); ətir və kosmetik vasitələrin (13.9%); tütün və tütün məhsullarının (11.1%); şəkərin (7.7%); traktorların (6.3%); kağız məmulatlarının (4.6%); kərə yağının (4.2%); əczaçılıq məhsullarının (3.9%) və qazanlar, avadanlıq, mexaniki qurğuların (3.6%) idxalı artmışdır. Bu dövrdə, turboreaktiv mühərriklərin (89.7%); gəmilər, qayıqlar və üzən konstruksiyaların (40.6%); mexaniki kürək və ekskavatorların (38.4%); kommutasiya qurğularının (33.4%); yük avtomobillərinin (29.7%); daxiliyanma

mühərriklərinin (27.7%); hesablama maşınlarının (22.2%); mebel mallarının (12.8%); dənli bitkilərin (8.1%); daş və şüşə məmulatlarının (6.4%); ağac məmulatlarının (5.6%); metalların (4.2%); kran, klapan, boru kəməri armaturlarının (3.4%); sabun və yuyucu vasitələrin (3.0%) və bitki yağlarının (1.2%) idxalı isə azalmışdır.

İdxalın strukturunda xarici investisiyalar hesabına gətirilmiş maşın-avadanlıqların və malların xüsusi çəkisi 3.8% təşkil edərək 0.7 mlrd.$ olmuşdur.

*CƏDVƏL 4. İdxalın strukturu, mln.$.*

| Göstəricilər | 2024-cü il | | 2025-ci il | |
|---|---|---|---|---|
| | Məbləğ | Xüsusi çəki, %-lə | Məbləğ | Xüsusi çəki, %-lə |
| İdxal | 17 167.1 | 100.0 | 17 696.1 | 100.0 |
| *o cümlədən:* | | | | |
| 1. İstehlak malları | 6 824.3 | 39.8 | 7 096.7 | 40.1 |
| - *ərzaq malları* | *2 321.4* | *13.5* | *2 478.0* | *14.0* |
| - *digərləri* | *4 502.9* | *26.3* | *4 618.7* | *26.1* |
| 2. İnvestisiya yönümlü mallar | 532.1 | 3.1 | 664.7 | 3.8 |
| 3. Digər mallar | 9 810.7 | 57.1 | 9 934.7 | 56.1 |

### *3.2. Xidmətlər balansı*

2025-ci il üzrə xarici dövlətlərlə Azərbaycanın iqtisadi əlaqələrində xidmətlərin ümumi həcmi 18.9 mlrd.$-ı təşkil etmişdir. Bunun 10.3 mlrd.$-ı qeyri-rezidentlər tərəfindən Azərbaycanın rezidentlərinə, 8.6 mlrd.$-ı isə Azərbaycan rezidentləri tərəfindən xarici ölkələrin rezidentlərinə göstərilən xidmətlərdir. Ümumilikdə, xidmətlər balansında yaranan kəsir 19.1% azalaraq 1.7 mlrd.$ olmuşdur. Neft-qaz sektoru üzrə xidmətlər balansının (əsasən tikinti xidmətləri və digər işgüzar xidmətlər) kəsiri 1.6 mlrd.$ olmuşdur. Qeyri-neft-qaz sektoru üzrə xidmətlər balansının kəsiri əhəmiyyətli azalaraq 32.6 mln.$ təşkil etmişdir.

Qarşılıqlı xidmətlər dövriyyəsinin 28.6%-i nəqliyyat xidmətləri üzrə aparılan əməliyyatların payına düşür. Ümumi dəyəri 5.3 mlrd.$ olan nəqliyyat xidmətlərinin 67.9%-i qeyri-rezidentlərin Azərbaycanın nəqliyyat xidmətlərindən istifadəsi ilə əlaqədar olmuşdur. Azərbaycan rezidentlərinin qeyri-rezidentlərə göstərdikləri nəqliyyat xidmətlərinin dəyəri 3.6

mlrd.$, qeyri-rezidentlərin Azərbaycan rezidentlərinə göstərdikləri nəqliyyat xidmətlərinin dəyəri isə 1.7 mlrd.$ təşkil etmişdir.

Dövr ərzində qeyri-neft-qaz sektoru üzrə nəqliyyat xidmətlərinin ixracı ö.i.n. 29.8% artmış, idxalı isə 7.8% azalmışdır. Bu müsbət dinamika nəqliyyat xidmətləri üzrə profisitin əhəmiyyətli genişlənməsini şərtləndirmiş və onun profisiti 49.1% artaraq 1.9 mlrd.$-a çatmışdır. Qeyd edək ki, nəqliyyat xidmətləri üzrə profisit 2024-cü ildə 1.3 mlrd.$-ı təşkil etmişdir.

2025-ci ildə qarşılıqlı turizm xidmətlərinin dövriyyəsi 3.5 mlrd.$ təşkil etmişdir. Ümumilikdə, hesabat dövründə turizm xidmətləri üzrə balans profisitli olmuş, ixrac 2.0 mlrd.$ olmaqla 1.5 mlrd.$-lıq idxalı üstələmiş, nəticədə turizm xidmətləri üzrə 438.0 mln.$ həcmində profisit yaranmışdır. Xarici ölkələr tərəfindən Azərbaycan rezidentlərinə turizmlə bağlı göstərilən xidmətlərin həcmi 1.5 mlrd.$ olmuşdur. Bunun 74.9%-i Azərbaycan vətəndaşlarının şəxsi səfərləri ilə bağlı olmuşdur (məkik idxal üçün vəsaitlər istisna olmaqla).

Hesabat dövründə qeyri-neft-qaz sektoru üzrə qeyri-rezidentlərə göstərilən tikinti xidmətlərinin həcmi 29.2 mln.$ təşkil etmişdir. Qeyri-neft-qaz sektoru üzrə qeyri-rezidentlərə ödənilən digər işgüzar xidmətlərin həcmi isə 5.9% artaraq 2.2 mlrd.$ olmuşdur.

### *3.3. İlkin gəlirlər balansı*

Hesabat dövründə ilkin gəlirlər balansında neft-qaz sektoru üzrə 2.6 mlrd.$ kəsir, qeyri-neft-qaz sektoru üzrə isə 0.6 mlrd.$ profisit olmuşdur. Nəticədə ilkin gəlirlər balansında kəsir 27.4% azalaraq 2.0 mlrd.$ təşkil etmişdir.

İlkin gəlirlər üzrə daxilolmaların və ödənişlərin ümumi dövriyyəsi 7.8 mlrd.$ olmuşdur. Bunun 62.8%-ini 4.9 mlrd.$ olmaqla Azərbaycandan qeyri-rezidentlərə ödənişlər təşkil etmişdir. Bu məbləğin isə əsas hissəsini (3.4 mlrd.$) xarici investorların payına düşən gəlirlərin repatriasiyası (o cümlədən 3.0 mlrd.$ beynəlxalq neft-qaz konsorsiumları üzrə əsasən xam neft və təbii qaz şəklində repatriasiya), qiymətli kağızlar portfeli üzrə qeyri-rezidentlərə ödənilən faizlər (249.6 mln.$), xarici kreditlərdən istifadəyə görə ödənilən faizlər (478.9 mln.$) və digər ödənişlər (736.8 mln.$) təşkil etmişdir. Məlumat üçün qeyd edək ki, digər ödənişlərin böyük hissəsi (445.1 mln.$) ölkə iqtisadiyyatına yenidən investisiya (Azərbaycanda qazanılan gəlirlərin ölkəyə təkrar investisiyası) formasında daxil olduğu üçün birbaşa xarici investisiyalar maddəsində nəzərə alınmışdır.

## 3.4. Təkrar gəlirlər balansı

Təkrar gəlirlər üzrə xarici ölkələrlə aparılan əməliyyatların ümumi həcmi 2.1 mlrd.$ məbləğində qiymətləndirilmişdir. Daxilolmalar 1.4 mlrd.$, ödənişlər isə 0.7 mlrd.$ təşkil etmişdir.

Təkrar gəlirlər üzrə ümumi daxilolmaların 83.5%-ni xarici ölkələrdən fiziki şəxslərin pul baratları, 11.1%-ni ölkəyə gətirilən humanitar malların və digər yardımların həcmi, 5.4%-ni isə digər daxilolmalar təşkil edir.

Ölkəyə göndərilən pul baratlarının həcmi 8.7% artaraq 1.2 mlrd.$, ölkədən köçürülən pul baratlarının həcmi isə 4.1% azalaraq 0.5 mlrd.$ olmuşdur. Nəticədə pul baratları üzrə 0.7 mlrd.$ (20.8% artım) müsbət saldo yaranmışdır.

*QRAFİK 1. 2025-ci il üzrə pul baratlarının əsas göstəriciləri, mln.$.*







Bütövlükdə, təkrar gəlirlər üzrə əməliyyatların saldosu müsbət 742.1 mln.$ (17.5% artım) təşkil etmişdir.

## 4. KAPİTAL VƏ MALİYYƏNİN HƏRƏKƏTİ HESABI[1]

2025-ci il üzrə ölkənin xalis xarici maliyyə aktivləri 5.4 mlrd.$ artmışdır. Bu göstərici xaricə yönəldilmiş birbaşa investisiyalar (0.9 mlrd.$), portfel investisiyaları (1.9 mlrd.$) və digər investisiyalar (2.6 mlrd.$) hesabına formalaşmışdır.

Hesabat dövründə ölkənin xalis xarici maliyyə öhdəlikləri isə 398.9 mln.$ artmışdır ki, bu da xaricdən cəlb olunmuş birbaşa investisiyalar (-76.2 mln.$), neft bonusu (450.4 mln.$), portfel investisiyaları (-28.1 mln.$) və digər investisiyalar (52.8 mln.$) hesabına formalaşmışdır.

Ümumilikdə, 2025-ci il üzrə kapital və maliyyənin hərəkəti üzrə dinamika 2024-cü ilin göstəricisi ilə müqayisədə qismən yaxşılaşmışdır.

*CƏDVƏL 5. 2025-ci il üzrə xalis xarici maliyyə aktivləri və öhdəlikləri, mln.$.*

| | Aktivlər | Öhdəliklər |
|---|---|---|
| Birbaşa investisiyalar | 910.2 | -76.2 |
| *- neft-qaz sektoru* | *-69.4* | *-1 117.7* |
| *- digər sektorlar* | *979.6* | *1 041.5* |
| Neft bonusu | | 450.4 |
| Portfel investisiyaları | 1 862.4 | -28.1 |
| Digər investisiyalar | 2 590.1 | 52.8 |
| - *Ticarət kreditləri və avanslar* | *1 211.1* | *-225.6* |
| - *Kreditlər və ssudalar* | *-28.4* | *417.3* |
| - *Depozitlər və nağd valyuta* | *1 407.4* | *-138.9* |
| C Ə M İ | 5 362.7 | 398.9 |

[1] Beynəlxalq Valyuta Fondunun tədiyə balansı üzrə yeni (6-cı nəşr) təlimatının tələblərinə uyğun olaraq tədiyə balansının strukturunda maliyyə hesabı Aktivlər/Öhdəliklər prinsipi üzrə təsnifləşdirilmişdir.

## 4.1. Birbaşa investisiyalar

Birbaşa xarici investisiyalar üzrə xalis xarici maliyyə aktivləri 910.2 mln.$ artmış, xalis xarici maliyyə öhdəlikləri isə 76.2 mln.$ azalmışdır.

Birbaşa xarici investisiyalar formasında xaricdən cəlb olunmuş sərmayələrin ümumi məbləği 6.6 mlrd.$, xarici iqtisadiyyata yönəldilmiş birbaşa xarici investisiyaların həcmi isə 2.5 mlrd.$ olmuşdur. Ümumilikdə birbaşa xarici investisiyalar üzrə 986.4 mln.$ kəsir yaranmışdır ki, bu da 2024-cü ilin dinamikasına yaxındır.

Ölkə iqtisadiyyatına yatırılmış birbaşa xarici investisiyaların strukturunda neft-qaz sektorunun xüsusi çəkisi 78.1% təşkil etmişdir. 2025-ci il üzrə tədiyə balansında birbaşa xarici investisiyalar maddəsinin neft-qaz sektoru üzrə xalis maliyyə öhdəliklərinin (1.1 mlrd.$) azalması neft-qaz sektoru üzrə cəlb olunmuş investisiya ilə (5.2 mlrd.$) həmin sektor üzrə kapitalın repatriasiyası (6.3 mlrd.$, əsasən beynəlxalq neft-qaz konsorsiumların payına düşən xam neft və təbii qaz şəklində olan kapital repatriasiyası) arasındakı fərqdən formalaşır.

Qiymətləndirmələrə görə qeyri-neft-qaz sektoruna cəlb olunmuş birbaşa xarici investisiyaların ümumi məbləği 6.1% artaraq 1.4 mlrd.$ olmuşdur ki, bunun da bir hissəsi (348.4 mln.$) ölkə iqtisadiyyatına gəlirlərin təkrar investisiyası ilə bağlı olmuşdur.

## 4.2. Portfel investisiyaları

Portfel investisiyaları üzrə xalis xarici maliyyə aktivləri 1.9 mlrd.$ artmış, xalis xarici maliyyə öhdəlikləri isə 28.1 mln.$ azalmışdır.

Hesabat dövründə portfel investisiyaları üzrə aktivlər dövlət (45.1 mln.$) sektorunun, bankların (0.7 mlrd.$), kapitalda iştiraka təminat verən qiymətli kağızların (8.7 mln.$) və digər (1.1 mlrd.$) sektorların hesabına artmışdır. Öhdəliklər isə əsasən, kapitalda iştiraka təminat verən qiymətli kağızların (0.2 mln.$) və digər (16.0 mln.$) sektorların hesabına artmış, dövlət (44.3 mln.$) sektorunun hesabına isə azalmışdır.

### *4.3. Neft bonusu*

2017-ci il 14 sentyabr tarixli "Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş"in ("AÇG HPBS") 29.2-ci maddəsinə əsasən, 2018-2025-ci illər ərzində ümumilikdə 3.6 mlrd.$ məbləğində neft bonusu ödənilməsi nəzərdə tutulmuşdur. Bu məbləğin illik ödənişi 450 mln.$ təşkil edir. Cari il üzrə nəzərdə tutulan vəsait 2025-ci ilin I rübünün yanvar ayında Azərbaycan tərəfinə ödənilmişdir.

### *4.4. Digər investisiyalar*

Digər investisiyalar üzrə xalis xarici maliyyə aktivləri 2.6 mlrd.$, xalis xarici maliyyə öhdəlikləri isə 52.8 mln.$ artmışdır.

Hesabat dövründə kreditlər və ssudalar üzrə xalis xarici maliyyə aktivləri 28.4 mln.$ azalmış, xalis xarici maliyyə öhdəlikləri isə 417.3 mln.$ artmışdır. Kreditlər və ssudalar üzrə xalis xarici maliyyə öhdəlikləri bank (456.0 mln.$) sektorunun, neft-qaz sektorunun kreditləri (557.3 mln.$) və müəssisələrin kreditləri (129.5 mln.$) hesabına artmış, dövlət kreditləri (415.6 mln.$) və dövlət zəmanətli kreditlər (309.9 mln.$) hesabına isə azalmışdır.

Depozitlər və nağd valyuta üzrə xalis xarici maliyyə aktivləri 1.4 mlrd.$ artmış, xalis xarici maliyyə öhdəlikləri isə 138.9 mln.$ azalmışdır.

## *5. EHTİYAT AKTİVLƏRİ*

2025-ci ildə ölkənin strateji valyuta aktivləri 14.1 mlrd.$ artaraq 85.1 mlrd.$-a çatmış, ehtiyat aktivlərinin reallaşmış hissəsi isə 1.4 mlrd.$[2] azalmışdır.

## *6. XALİS SƏHVLƏR VƏ BURAXILIŞLAR*

Hesabat dövründə tədiyə balansı üzrə xalis səhvlər və buraxılışlar müsbət 52.5 mln.$ həcmində olmuşdur.

[2] *Məzənnə fərqi, yenidənqiymətləndirmə və digər dəyişmələr nəzərə alınmadan.*